1_Layout 1 28.07.2020 15:46 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 14 (580)

30 iyul 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Azərbaycanın gücü milli həmrəylik və xalq-iqtidar birliyindədir

**“Xalq” qəzetinin müxbiri İttifaq Mirzəbəylinin müəllifi olduğu “Azərbaycanın gücü milli həmrəylik və xalq-iqtidar birliyindədir” başlıqlı məqalənin aktuallığını nəzərə alaraq, ixtisarla oxucularımıza təqdim edirik.**

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir... Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Biz Azərbaycan Prezidenti İlham Əliyevin İkinci dünya müharibəsi iştirakçılarına və əlillərinə, Qarabağ müharibəsi qazilərinə, şəhid ailələrinə, ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda gedən döyüşlərdə əlil olmuş soydaşlarımıza, qaçqın və köçkünlərə nə qədər hörmət və ehtiramla yanaşdığını dəfələrlə görmüşük. Bu diqqət və qayğı təkcə maddi və ya sosial arenada deyil, eləcə də mənəvi-psixoloji müstəvidə mühüm əhəmiyyət kəsb edir.

Son günlər isə dövlət başçımız sayı on minlərlə hesablanan daha bir zümrəyə öz ehtiramını, diqqətini və təşəkkürünü çatdırdı. Bu, könüllü olaraq cəbhəyə getmək üçün müvafiq dövlət qurumlarında qeydiyyatdan keçmiş gənclərin valideynləridir. Prezident həmin gənclərlə fəxr etdiyini gizlətməyərək dedi: “Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci. Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm”.

Söhbət dövlət başçımızın iyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki nitqindən gedir. Prezident orada Azərbaycanı ötən əsrin 90-cı illərinə qaytarmaq istəyənlərə xəbərdarlıq edərək dedi ki, indi Azərbaycan o Azərbaycan deyil. Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü iqtidarı var, Azərbaycan iqtidarının güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var.

“Mən bu günlərdə hər gün bəlkə də minlərlə məktub alıram”– deyə, nitqini davam etdirən dövlət başçımız xatırlatdı ki, o məktublarda vətəndaşlar öz dəstəyini ifadə edirlər, həmrəylik ifadə edirlər, mənim çıxışımdan sonra orduda xidmət etmək istəyirlər. “Mən demişdim, orada şüşələri qıranlar getsinlər, yazılsınlar orduya... Əlli minə yaxın Azərbaycan vətəndaşı, – onların mütləq əksəriyyəti gənclərdir, – Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox”.

Sevindirici haldır ki, düşmənin qudurlaşdığı bir dövrdə milli həmrəylik nümayiş etdirən, əsgəri və dövləti dəstəkləmək istiqamətində könüllü addımlar atan təkcə gənclərimiz deyil. Ölkənin siyasi palitrasının da mütləq əksəriyyəti Prezident İlham Əliyevin siyasətini və Milli Ordumuzun qətiyyətini dəstəkləyən təklif və qərarlarla çıxış edir.

Məlum olduğu kimi, iyulun 16-da Azərbaycanda fəaliyyət göstərən 43 siyasi partiya Prezident İlham Əliyevə və Azərbaycan Ordusuna dəstək bəyanatı imzalayıb. Sənəddə deyilir ki, 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda əsl Ali Baş Komandan – xalq, ön və arxa cəbhə birliyi, vəhdəti yaşanır. Siyasi baxışlarından, yaşından, statusundan, məşğuliyyət növündən, cinsindən asılı olmayaraq, Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, mənfur düşmənin növbəti dəfə Vətən torpaqlarına göz dikdiyi zaman bir nəfər kimi Ali Baş Komandana, silahlı qüvvələrimizə dəstəklərini ifadə etmişlər.

Yəni Azərbaycan vətəndaşının çoxdan arzuladığı, digər ölkələrin siyasət mədəniyyətində həsəd və qibtə ilə izlədiyimiz an, nəhayət, ölkəmizdə də yetişir. Azərbaycanda da dünənin siyasi rəqibləri Vətən təhlükədə olduğu anda rəqabəti unudub, eyni səngərin əsgərləri kimi təhlükəni dəf etmək üçün bir yumruq kimi birləşmişlər: “Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik.”

Bu zaman başqa bir faktı da yada salmaq istərdim. Belə ki, bu il martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında geniş nitqlə çıxış edən Prezident İlham Əliyev xalq – iqtidar birliyi məsələsini növbəti dəfə qabartmış və maraqlı mülahizələr söyləmişdi: “Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır... Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır.”

Prezident özünün tezis və tövsiyə xarakterli nitqində xatırladır: “Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, – biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, – onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır”.

Milli həmrəyliyin formalaşdırılması və xalq-iqtidar birliyinin daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlar barədə hazırladığımız sətirləri dövlət başçımızın son tədbirlərdən birində səsləndirdiyi fikirlərlə tamamlayırıq: “Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edirəm. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Ona görə bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir. Ona görə mən bütün bu sualları çılpaqlığı ilə ictimaiyyətə təqdim edirəm”.

# Daxili İşlər Nazirliyində videokonfrans formatında Kollegiya iclası keçirilib

**İyulun 21-də Daxili İşlər Nazirliyində 2020-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib. Ölkədəki epidemik vəziyyətlə əlaqədar Kollegiya videokonfrans formatında baş tutub.**



Müşavirəni giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarının və Daxili Qoşunların ötən 6 ayda böyük bir iş həcmini yerinə yetirdiyini və bir çox istiqamətdə müsbət nəticələr əldə etdiyini vurğulayıb. Xidməti fəaliyyətdə innovasiyaların tətbiqi üzrə həyata keçirilən tədbirlərlə “Karantin dövründə buraxılışların qeydiyyatı”, “Mobil Axtarış Portalı”, “Yoxlamaların vahid məlumat reyestri”, “Ezamiyyətlərin qeydiyyatı”, Polis Akademiyasında “Elektron imtahan” informasiya sistemlərinin yaradılaraq istismara verildiyini, eləcə də bir sıra infrastruktur yeniliklərinin həyata keçirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri ölkədə tətbiq olunmuş xüsusi karantin rejiminə riayət olunmasına nəzarət tədbirləri çərçivəsində yoluxanların karantinə yerləşdirildiyi 35 şəhər və rayon üzrə 62 xəstəxananın və digər obyektlərin sutkalıq mühafizəsinin davam etdirildiyini bildirib. Həmçinin, xüsusi karantin rejiminin tələblərini pozan 195 minə yaxın şəxs haqqında inzibati məsuliyyət tədbirlərinin görüldüyünü, onlardan 788 nəfərin həbs edildiyini, 193 min 560 nəfərin, o cümlədən tibbi maskadan istifadə etmədiklərinə görə 17 min 820 nəfərin cərimələndiyini qeyd edib.

General-polkovnik V.Eyvazov bildirib ki, dövlət başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daxili işlər orqanlarının və Daxili Qoşunların fəaliyyəti həmişə yüksək qiymətləndirilib. O, polisin peşə bayramı ərəfəsində 26 əməkdaşın dövlət mükafatına layiq görüldüyünü, rəhbər vəzifəli 3 şəxsə ali xüsusi rütbələr verildiyini məmnunluqla xatırladıb.

Sonra hesabat məruzəsi ilə çıxış etmək üçün söz Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimova verilib. O, əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 13.310 cinayətin qeydə alındığını, bu cinayətlərin 94,7 faizinin daxili işlər və prokurorluq orqanları tərəfindən istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olmaqla onların 87,2 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil etdiyini bildirib.

Məruzəçi qeyd edib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bir çox cinayətin sayında azalma qeydə alınıb. Belə ki, qəsdən adam öldürmələr 6, adam öldürməyə cəhdlər 16,3, qəsdən sağlamlığa az ağır zərər vurmalar 4,2, mülkiyyət əleyhinə olan cinayətlər 4,8, xuliqanlıqlar 27, yetkinlik yaşına çatmayanların cinayətləri 19,6, ailə münaqişəsi zəminində hüquqpozmalar 6,2, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 33,3, ictimai yerlərdə törədilən cinayətlər 21,5, yol-nəqliyyat hadisələri 7,5, qəzalarda ölənlərin sayı 5, xəsarət alanların sayı 6 faiz azalıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 241 cinayətin açılması, axtarışda olan 1821 şəxsin tutulması da məhz hesabat dövründə təmin edilib.

Polis general-leytenantı S.Əzimov mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 438, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 86 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən ötən ilin 6 ayı ilə müqayisədə 256,5 kiloqram çox və ya 1 ton 67 kiloqram narkotik vasitə çıxarıldığını, 91 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini Kollegiya iştirakçılarının nəzərinə çatdırıb.

Məruzə ətrafında çıxış edən Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov, Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Teymur Hacıyev, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov, Bakı Şəhər Baş Polis İdarəsi İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Sərdar Səfərov və digərləri hesabat dövründə görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlər barədə məruzə ediblər.

İclasa yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi polis orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdıraraq müşavirə iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına və qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib.

Nazir cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələrin inkişaf etdirilməsini, şəxsi heyətin daha böyük əzmlə çalışmasını və əməkdaşların peşəkarlığının yüksəldilməsini hər bir polis orqanının rəhbərindən tələb edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, verdiyi böyük dəyərə və etimadına görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və onları əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 27.07.2020 12:40 Page 1



# XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ FƏRQLƏNƏN BÖLMƏ

**17072 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri polkovnik-leytenant Qalib Məhərrəmovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi bölməsidir. Belə ki, bölmə cari ilin 1-ci yarımili ərzində yüksək intizam nümayiş etdirərək xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hərbi hissənin müvafiq bölmələri arasında birinciliyi qazanıb.**



Bölmələr arasında nümunəviliyi ilə fərqlənməsi, kütləvi tədbirlərdə fəallıq göstərilməsində dəstə komandiri polkovnik-leytenant Q.Məhərrəmovun, eləcə də kollektivin hər bir üzvünün zəhməti böyükdür.



Yüksək döyüş hazırlığının qorunub saxlanılması üzrə əldə olunmuş nailiyyətlərdən bəhs edən dəstə komandiri bunu hərbi qulluqçuların lazımi hərbi biliklərə yiyələnmələri ilə əlaqələndirdi. Müvafiq tədris proqramlarına uyğun nəzəri və praktiki məşğələlərin keçirilməsi üçün hərbi hissədə hər bir şəraitin olduğunu söylədi. Bildirdi ki, bölmədə idarəçilik, təşkilatçılıq, tələbkarlıq, nəzarət, planlaşdırma və icraçılığın vəziyyətinin təkmilləşdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilib. Yarımil ərzində daxil olan müvafiq əmr və göstərişlər şəxsi heyətə çatdırılıb, habelə yoxlamaların nəticələri barədə arayışlar dəstədə keçirilən xidməti müşavirələrdə aidiyyəti üzrə müzakirə edilib, onların tələblərinin yerinə yetirilməsi və nöqsanların aradan qaldırılması üçün plan tərtib edilərək icrası təmin olunub.

Bölmənin şəxsi heyətinin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına, mənəvi-psixoloji durumuna, xüsusi vasitələrin və digər maddi vəsaitlərin vəziyyətinə cavabdehlik daşıyan komandir, həmçinin, mart ayının 24-dən bu günə kimi müvafiq göstərişə əsasən, Şəmkir, Gəncə, Samux rayonları ərazisində karantin nəzarətinə götürülmüş istirahət mərkəzlərinin mühafizəsi üzrə xidmətə cəlb olunduqlarını nəzərimizə çatdırdı. Aparılan xidmət zamanı polis əməkdaşları ilə birgə karantin qaydalarını pozan şəxslərə qanunvericiliklə bağlı müddəalar izah olunub. Ümumiyyətlə, qarşıya qoyulmuş tapşırıqların tam və keyfiyyətlə yerinə yetirilməsinin təmin edilməsi üçün bölmənin yüksək döyüş hazırlığı vəziyyətində saxlanılması şəxsi heyət üçün birinci dərəcəli vəzifə olub. Xidmətin təşkili və aparılması hərbi hissə və dəstə komandanlığının daim diqqət mərkəzində saxlanılmaqla, xidmətə təyin olunmuş hərbi qulluqçuların seçilməsinə, hazırlanmasına, təlimatlandırılmasına lazımı diqqət yetirilib, eləcə də nizamnamədənkənar münasibət hallarının baş verməsinin qarşısının alınması üçün qabaqlayıcı kompleks tədbirlərin həyata keçirilməsi təmin olunub.

Polkovnik-leytenant Q.Məhərrəmov tabeliyində olan hərbi qulluqçuların fəaliyyətindən danışarkən xidmətdə fərqlənən, daim öz üzərində çalışan baş leytenant İsa Dadaşov, gizir Mehdi Azayev, baş çavuş Malik Quliyev və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Eltac Hacıəliyevin adlarını çəkməyi unutmadı.

### POST-PATRUL XİDMƏTİ BÖLMƏSİ SAYIQLIQ NÜMAYİŞ ETDİRİR

Hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsidir. Qeyd edək ki, cari ildə hissədə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə yüksək nəticə əldə edən bölmə kimi fərqlənir.

Yeni yaradılmasına baxmayaraq, bölmə komandiri baş leytenant Elnur Əliyev şəxsi heyətin müəyyən edilmiş vəzifələri vaxtında və keyfiyyətlə icra etməsi üçün əlindən gələni əsirgəmir. O, 1990-cı il oktyabrın 12-də Zərdab rayonunun Məlikumudlu kəndində dünyaya gəlib. Orta təhsilini böyüyüb boya-başa çatdığı kənddə, Məhəmməd Füzuli adına orta məktəbdə alıb. 2008-ci ildə orta təhsilini tamamlayıb. Elə həmin ilin okyabr ayından Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmətə başlayıb, noyabr ayında isə xidmətini davam etdirmək üçün 16073 saylı hərbi hissəyə göndərilib. 2010-cu ilin aprel ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini bu hərbi hissənin xüsusi təyinatlı bölməsində davam etdirib. 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi – N.A.) qəbul olunub. 2014-cü ildə hərbi təhsilini başa vuraraq "leytenant" hərbi rütbəsi alıb. Bu tarixdən etibarən müxtəlif vəzifələrdə xidmətini davam etdirən hərbi qulluqçumuz, cari ilin mart ayından 17072 saylı hərbi hissədə post-patrul xidməti bölməsinin komandiridir.





Bölmənin əsas fəaliyyətinin ictimai asayişin qorunub saxlanılmasından ibarət olduğunu bildirən baş leytenant E.Əliyev bunun üçün mütəmadi olaraq nəzəri və praktiki məşğələlərin keçirildiyini nəzərə çatdırdı. Keçirilmiş məşğələlər, təlimlər zamanı müxtəlif forma və üsullardan, hərbi qulluqçuların hərbi biliklərə yiyələnmələri üçün bütün imkan və vasitələrdən geniş istifadə olunub, bunun nəticəsidir ki, döyüş təlimində uğurlu nəticələr əldə edilib. Cari ilin birinci yarımili ərzində post-patrul xidməti bölməsinin fəaliyyəti əsasən döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, döyüş təliminin keyfiyyətinin artırılması, möhkəm hərbi intizama nail olunması istiqamətləri üzrə təşkil edilib və bu məsələlər ciddi nəzarətdə saxlanılıb.



O, post-patrul xidməti bölməsinin ümumi fəaliyyətini təhlil edərək, tabeliyindəki hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olduqlarını dedi: "Şəxsi heyətin öz vəzifələrini yüksək səviyyədə və nümunəvi yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bölmə döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlamaqla, üzərinə düşən vəzifələri yerinə yetirməyə hər zaman hazır olmalıdır".

Sonda baş leytenant E.Əliyev bölmədə yüksək döyüş hazırlığının, hərbi intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətli tədrisinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübəyə yiyələnməyə təkan verdiyini söylədi.

**baş leytenant**
**Nigar Ağayeva**

# ÇAĞIRIŞÇILARIN HƏRBİ XİDMƏTƏ QƏBULU DAXİLİ QOŞUNLAR KOMANDANLIĞININ NƏZARƏTİ ALTINDA HƏYATA KEÇİRİLİB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, iyul ayının 1-dən 31-dək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmrilə çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin Qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi and içənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir və onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumun yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib.

Qəbul məntəqəsinə daxil olan çağırışçılar hərbi həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri - Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsinin zabiti mayor Fariz Qurbanov və 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsi komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Nail Nəzirov tərəfindən onlarla söhbətlər aparılıb.

Baş leytenant N.Nəzirov söylədi ki, söhbət zamanı çağırışçıların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşləri, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilib. Həmçinin, onlara hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanaraq hərbi hissəyə təqdim olunub.



Daha sonra çağırışçılar növbə ilə həkim-cərrah, həkim-terapevt, həkim-stomatoloq, həkim ekspert-psixonevroloq, ordinator-oftalmoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı keçirilib və sonda profilaktik flüoroqrafik və USM müayinələri aparılıb.

Çağırışçıların tibbi müayinədən keçirilməsi barədə məlumat verən qrupun üzvü - Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim tibb xidməti polkovnik-leytenantı Vüqar İbrahimov vurğuladı ki, nəzarət-buraxılış məntəqəsində hərbi hissəyə gətirilən bütün çağırışçıların hərarəti ölçülüb və hər biri tibbi maska ilə təmin olunub. Növbə ilə həkimlər tərəfindən yoxlanıldıqdan sonra koronavirus pandemiyası ilə əlaqədar olaraq TƏBİB-in həkimləri tərəfindən bütün çağırışçılardan analizlər götürülüb. Müayinələrdən keçən çağırışçılardan yalnız praktiki sağlam hesab olunanlar hərbi xidmətə qəbul ediliblər.



Həmçinin, çağırışçıların əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunmaları da daim diqqətdə saxlanılıb.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün müvafiq məsləhətlər verilir.

Qeyd edək ki, bölmələrdə çağırışçıların yuyunma yerlərində və məişət otaqlarında səliqə-sahman, eləcə də hərbi qulluqçuların saçlarının və geyim formalarının qaydaya salınması üçün lazım olan hər bir şərait yaradılıb.

Bütün bunlar onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, əsl vətənpərvər hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilməkdədir.

**Mətbuat xidməti**

30 iyul 2020-ci il ƏSGƏR 3

# ALİ HƏRBİ MƏKTƏBDƏ TƏLİM-TƏDRİS PEŞƏKAR, SAVADLI MÜƏLLİM HEYƏTİ TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLİR

Daxili Qoşunların Ali Hərbi Məktəbi ali xüsusi-hərbi təhsilli kadrların hazırlanmasını, zabitlərin ixtisaslarının artırılmasını və elmi-tədqiqat işlərinin aparılmasını uğurla həyata keçirir. Burada tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Daxili İşlər naziri və Daxili Qoşunların komandanının əmr və direktivlərinin, eyni zamanda, Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun olaraq təşkil olunur.



Təlim - tədrisin planlaşdırılması zamanı kursantlara Daxili Qoşunların ehtiyaclarına və dövrün tələblərinə uyğun təhsilin verilməsi və qazandıqları bilikləri nə vaxt, harada, necə tətbiq edəcəkləri praktiki olaraq göstərilir, onların savadlı və bacarıqlı hərbi qulluqçu kimi hazırlanmalarına xüsusi diqqət yetirilir, sistemli bir şəkildə fərdi və qrup halında çalışmalar təşkil edilib keçirilir.



Bunun nəticəsidir ki, Ali Hərbi Məktəbin tədris bölükləri intizamlı, savadlı kursantları ilə hər zaman fərqlənir. Leytenantlar Namiq Hüseynov və Elmir Hüseynovun komandirləri olduqları zabit hazırlayan tədris taqımları da bu baxımdan səciyyəvidir. Burada tədris prosesinin vəziyyəti ilə tanış olarkən gənc taqım komandirlərini tanımağa da imkanım oldu.

Leytenant N.Hüseynov 1998-ci il fevralın 21-də Sumqayıt şəhərində dünyaya gəlib. 2015-ci ildə Sumqayıt şəhəri "Təfəkkür" liseyindən məzun olub. Elə həmin ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə imtahan verən Namiq 436 balla məktəbə qəbul olunub. 2015-2019-cu illərdə burada təhsil alıb. Hazırda zabit hazırlayan tədris taqımının komandiridir. Gənc olmasına baxmayaraq, qısa müddət ərzində özünə hörmət qazanmağı, biliyi və bacarığı ilə fərqlənməyi bacarıb.

Leytenant E.Hüseynov isə 1997-ci il sentyabrın 28-də Yevlax rayonunun Yəldili kəndində anadan olub. 2012-ci ildə Fəxrəddin Nəcəfov adına kənd orta məktəbinin 9-cu sinfini bitirib. 2012-2015-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə, 2015-2019-cu illərdə isə Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsilini davam etdirib. O da digər zabit hazırlayan tədris taqımının komandiridir. Nümunəvi, intizamlı hərbi qulluqçu kimi xarakterizə olunur.

Leytenant N.Hüseynov məktəbdə keçirilən tədris prosesinin əsas məqsədinin hərbi-nəzəri və hərbi-praktiki biliklərə, intellektual təfəkkürə malik, ali təhsilli zabit kadrları hazırlamaq olduğunu bildirdi. O, təlim-tədrisin peşəkar, savadlı müəllim heyəti tərəfindən aparıldığını diqqətə çatdırdı. Söylədi ki, tədris Ali Hərbi Məktəbin tədris şöbəsi tərəfindən hazırlanan və məktəb rəisi tərəfindən təsdiq edilmiş məşğələ cədvəlinə əsasən həyata keçirilir: "Qalx" komandasından sonra səhər gimnastikası yerinə yetirilir. Ardınca səhər yeməyi və dərsə hazırlıq olur. Kursantlar məşğələ cədvəlinə uyğun olaraq, saat 08:30-dan başlayaraq, tədris məşğələlərinə cəlb olunurlar. Müəllim heyətinin rəhbərliyi ilə məşğələlər gündə 6 saat, akademik saat isə 45 dəqiqə olmaqla keçirilir. Hər tədris məşğələsinin arasında müəyyən edilmiş zaman çərçivəsində fasilələr olur. "Daxili Qoşunların taktiki hazırlığı", "Topoqrafiya", "Hərbi mühəndis hazırlığı", "Mülki müdafiə və tibbi biliklərin əsasları", "İnformatika və təhsildə İKT" və s. kimi fənlər kafedranın peşəkar hərbi, həmçinin, mülki müəllim heyəti tərəfindən tədris olunur".

Nahar fasiləsi bitdikdən sonra isə 1 saat müddətində kursantların istirahəti təşkil olunur, sərbəst iş saatları keçirilir. Kursantlar taqım komandirlərinin rəhbərliyi ilə növbəti tədris gününə hazırlıq işləri görürlər.

Bundan əlavə, şənbə günü 2 saat ərzində fiziki hazırlıq kafedrasının müəllim heyətinin nəzarəti altında ümumi fiziki hazırlıq məşğələləri təşkil olunur. Park-təsərrüfat gününün planına əsasən, silah və texnikaya qulluq, o cümlədən, digər aidiyyəti tədbirlər keçirilir. Bazar günü isə məktəb təsdiq olunmuş plana uyğun olaraq fəaliyyətini təşkil edir.

Onun fikirlərinin davamı olaraq, leytenant E.Hüseynov vurğuladı ki, təlim-tədris prosesi 1 və 2-ci yarımillik olmaqla, planlaşdırma şöbəsi tərəfindən planlaşdırılır, dərslərin gedişatı, eləcə də həftəlik məşğələ cədvəllərinin tərtib olunmasına nəzarət edilir: "Birinci semestrin yekununda bütün kurslar üzrə keçirilmiş fənlərdən test və praktiki üsulla imtahanlar keçirilir. Yəni nəzəri biliklərin test üsulu ilə imtahan verilməsi ilə yanaşı, kursantlar Daxili Qoşunların Xızı rayonunda yerləşən Təlim Mərkəzində praktiki təlimlər üzrə də imtahan olunurlar. İmtahan cədvəllərinin hazırlanması, imtahanların keçirilməsi, nəticələrin hesablanması və qiymətləndirilməsi Ali Hərbi Məktəbin qiymətləndirmə şöbəsi tərəfindən aparılır. İmtahanlarda daha yüksək bal toplayan kursantlar mükafatlandırılırlar".





Həmçinin, məktəbin kursantları gələcək ixtisaslarına uyğun vəzifələrdə xidmət təcrübəsi əldə etmək üçün qoşun təcrübəsinə cəlb olunurlar. Qoşun təcrübəsi Ali Hərbi Məktəbin tədris planına əsasən Daxili Qoşunların hərbi hissələrində keçirilir. Qoşun təcrübəsi kursantların Ali Hərbi Məktəbdə aldıqları nəzəri biliklərin möhkəmləndirilməsində və öz ixtisaslarına uyğun praktiki vərdişlərin qazanılmasında əsas tədris fəaliyyətidir.

Bundan əlavə, kursantların nəzəri biliklərinin möhkəmləndirilməsi, praktiki vərdişlərinin artırılması, döyüş şəraitinə yaxın şəraitlərdə bölmələrin idarə edilməsi üsullarına yiyələnmələri, həmçinin, təhkim olunmuş silah və texnikadan istifadə şərtlərinin mükəmməl mənimsənilməsini təmin etmək məqsədilə praktiki təlimlər keçirilir. Kursantlar təlimlərdə bölmə komandiri, eləcə də təlimin məqsədinə uyğun olaraq digər vəzifələri icra edirlər.

Bütün bunlar onu deməyə əsas verir ki, Ali Hərbi Məktəbdə təcrübəli müəllim heyəti tərəfindən həyata keçirilən təlim-tədris prosesi, o cümlədən, kursantların imtahanda əldə etdikləri nailiyyətlər gələcəkdə qoşunların peşəkar, Vətənə, dövlətə, dövlətçiliyə, həmçinin, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük keyfiyyətlərinə malik, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrinin tələblərinə sözsüz əməl etməyə qadir və bunları şəxsi heyətə aşılamağı bacaran zabit heyətilə komplektləşdirilməsinə zəmin yaradır.

**baş leytenant**
**Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# XALQININ DAR GÜNÜNDƏ UZAQ DİYARDAN ONUN MÜDAFİƏSİNƏ GƏLMİŞ, HARAYINA SƏS VERMİŞDİ...

Ermənistanın respublikamıza hərbi təcavüzü nəticəsində torpaqlarımızın işğal olunması, soydaşlarımızın öldürülməsi və öz yurdlarından didərgin salınması, yaşayış məntəqələrimizin viran qalması kimi faciələrə hiddətlənərək düşmənə qarşı döyüşlərə atılan xalqımızın qeyrətli oğullarının Vətənə sədaqəti, cəsurluğu və fədakarlığı yaddaşlarda silinməz iz qoyub. Onların böyük bir qismi ön cəbhədən sağ qayıtmayıb, eləcə də müharibədə əlil olub, sağlamlığını itirib. Bu oğulların arasında erməni işğalçılarına qarşı döyüşlərin getdiyi dövrdə Azərbaycandan uzaqlarda hərbi xidmətdə olmuş, lakin xalqının dar günündə onun köməyinə gəlmiş, harayına səs vermiş həmvətənlərimiz də vardı. Bu yazıda onlardan biri, ləyaqətli zabit, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçusu kapitan Cəfərov Nəzər Mahmud oğlunun ağır sınaqlardan keçən ömür yoluna nəzər salacağıq.



N.Cəfərov 1962-ci il aprelin 28-də o vaxt Vartaşen adlandırılan, indiki Oğuz rayonunun Filfilli kəndində anadan olub. Qədim tarixi kökləri, gözəl təbiəti, özünəməxsus adət-ənənələri olan Filfilli kəndində Nəzərin atası Mahmud Cəfərov uzun illər orta məktəbdə müəllim işləyib. Kəndin sayılıb-seçilən ziyalılarından biri idi. Mahmud Cəfərov və Zərnisə Cəfərovanın (M.Cəfərov 1984-cü ildə, Z.Cəfərova isə 1993-cü ildə vəfat ediblər - Y.A.) qurduğu çoxuşaqlı ailədə (bu ailənin iki oğul övladı bədbəxt hadisə, qəza nəticəsində həlak olub - Y.A.) böyüyən və tərbiyə alan Nəzər el-obasını çox sevirdi, ədəb-ərkanı, ciddi davranışı, zəhmətkeş, xeyirxah, sözübütöv, öz mənliyini qoruyan olması, təhsildə çalışqanlığı ilə yaşıdlarına, habelə özündən kiçiklərə nümunə göstərilirdi.

Hələ məktəb illərindən Nəzərin texniki sahəyə, bu yönümdə peşələrə xüsusi marağı vardı. Həmçinin, ailə üzvləri, məktəb yoldaşları ilə söhbətlərində hərbçi peşəsinə rəğbətini də gizlətmirdi.

1979-cu ildə N.Cəfərov Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti – Y.A.) qəbul olunub. Burada elektrik stansiyaları ixtisası üzrə ali təhsil alıb. 1984-cü ildə institutun məzunu olan gənc mühəndis elektrik peşəsinə yiyələnib.

Sovet dövründə ali məktəblərdə hərbi kafedralar fəaliyyət göstərir, oğlan tələbələr müvafiq hərbi təlim toplanışlarına cəlb olunur, onlara ali təhsillərini başa çatdırdıqdan sonra hərbi vəzifəli kimi zabit rütbələri verilirdi. Nəzər də hərbi təlim toplanışlarında iştirak edib, ehtiyat zabitləri üçün nəzərdə tutulan hazırlıq keçib.

1984-1987-ci illərdə N.Cəfərov əvvəlcə Bakıda, sonra isə Latviyanın paytaxtı Riqa şəhərində öz ixtisasına uyğun olaraq, elektroenergetika təyinatlı müəssisələrdə mühəndis-sınaqçı, habelə elektrik-mexanik vəzifələrində işləyib.

1987-ci ilin avqust ayının 24-də N.Cəfərov Zülfiyyə xanımla ailə qurub. Onun bu nikahdan iki oğul övladı dünyaya gəlib.

1987-ci ilin oktyabr ayında o, SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 5204 saylı hərbi hissəsində ehtiyatdan çağırılan zabitlər üçün hərbi təlim toplanışında iştirak etdikdən sonra bir daha mülki iş sahəsinə qayıtmır, həyatını həmişə ehtiram bəslədiyi hərbi xidmətə bağlayır. 1987-1990-cı illərdə SSRİ DİN-in Daxili Qoşunlarının Litvanın paytaxtı Vilnüs şəhəri ətrafındakı 7574 saylı hərbi hissəsində uzaqməsafəli və daxili rabitə mərkəzinin rəisi-taqım komandiri vəzifəsində xidmət edib. Sovet dövrünə aid hərbi xidmət zamanı - 1988-ci il yanvarın 28-də "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı, o cümlədən, 1989-cu il dekabrın 18-də "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə mükafatlandırılıb. Bununla yanaşı, "baş leytenant" hərbi rütbəsinədək yüksəlib.

1988-ci ilin fevral ayından etibarən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni separatizminin baş qaldırması və bunun nəticəsində millətlərarası münaqişənin alovlanması, həmin il və sonrakı dövrdə Ermənistandan azərbaycanlı əhalinin qaçqın düşməsi respublikamızda vəziyyəti gərginləşdirmişdi.

Vətəndə baş verən faciəli hadisələrə Nəzər biganə qala bilməzdi. O, belə vəziyyətdə respublikaya qayıtmağı, öz xalqının yanında olmağı qərara alır. Beləliklə, 1990-cı ilin sentyabr ayında Litvadan Azərbaycana qayıdır. SSRİ DİN-in Daxili Qoşunlarının respublikamızda dislokasiya olunan 3645 və 3669 saylı hərbi hissələrində xidmətini davam etdirib.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkəmizdə hərbi quruculuq prosesi başlayır. Hemin ilin dekabr ayında Azərbaycan DİN-in Daxili Qoşunlarının formalaşmasının təməli qoyulur. Nəzər də onun sıralarına qəbul olunaraq, formalaşması işinə peşəkar zabit kimi öz töhfəsini verib. O vaxt həqiqətən də zabit kadrlarına, hərbi mütəxəssislərə kəskin ehtiyac duyulurdu. İlkin olaraq bir müddət Daxili Qoşunlar komandanının sərəncamında saxlanıldıqdan sonra o, Daxili Qoşunların Baş İdarəsinin rabitə xidmətində baş mühəndis vəzifəsinə təyin edilib. 1992-ci il aprelin 2-də zabitə Daxili Qoşunlar komandanının müvafiq əmrinə əsasən növbəti "kapitan" hərbi rütbəsi verilib.

Qeyd olunan dövrdə Ermənistan-Azərbaycan sərhəddində və Dağlıq Qarabağda şiddətli döyüşlər gedirdi. Daxili Qoşunların hərbi hissələri ön cəbhənin müxtəlif istiqamətlərində torpaqlarımızın müdafiəsində dayanırdılar. Kapitan N.Cəfərov DQBİ-dən dəfələrlə Ağdam, Zəngilan, Qubadlı, Füzuli, Ağstafa, Tərtər, Ağdərə rayonlarına ezam edilərək hərbi hissələrimizdə, ön cəbhə qərargahında rabitə sisteminin qurulması, rabitəçilərin hazırlanması üzrə xüsusi tapşırıqları vicdanla yerinə yetirib. Düşmənlə təmas xəttində yerləşən bölmələrimizin fasiləsiz rabitə təminatı üzrə praktiki işlərin görülməsi zamanı bir neçə dəfə düşmənin atəşinə məruz qalıb, belə məqamlarda qorxmazlıq nümunəsi göstərib. Vəziyyətin kəskinləşdiyi anlarda o, peşəkar zabit kimi ön mövqelərdə düşmənə qarşı qətiyyətlə vuruşub, öz cəsurluğu ilə döyüşçüləri ruhlandırıb.

Bəzi məlumatlara görə, kapitan N.Cəfərov 1992-ci il iyulun 27-də Ağdərə rayonunun Möhrətaq kəndi (hazırkı adı Kiçik Qarabağ kəndi, Tərtər rayonunun inzibati ərazisinə aiddir, işğal altındadır – Y.A.) istiqamətində döyüş tapşırığını yerinə yetirərkən ölümcül yaralanaraq itkin düşüb.

Daxili Qoşunların Arxivindən verilən 21.06.2019-cu il tarixli arayışda isə qeyd olunub ki, kapitan N.Cəfərov 27.07.1992-ci ildə Ağdərə rayonunun Möhrətaq kəndində döyüşdə həlak olduğundan, Daxili Qoşunlar komandanının 19.01.1993-cü il tarixli aidiyyəti əmrilə adı şəxsi heyətin siyahısından çıxarılıb.

Ailəsi tərəfindən Nəzərin hansı şəraitdə itkin düşməsi və ya həlak olmasının araşdırılması yönündə müəyyən addımlar atılsa da, bu məsələyə tam aydınlıq gətirilməsi mümkün olmayıb. 09.02.1993-cü ildə Xətai Rayon VVAQ şöbəsi tərəfindən tərtib olunan ölüm haqqında şəhadətnamədə zabitin 27.01.1993-cü ildə Ağdərə rayonu ərazisində bədənin çoxlu odlu silah yarasından öldüyü göstərilib. Bununla da kapitan N.Cəfərovun şəhid olması faktı rəsmi dövlət sənədində öz əksini tapıb.

"Azərbaycan Xatirə Kitabı"nın 2002-ci ildə işıq üzü görən növbəti cildinin 730-cu səhifəsində kapitan N.Cəfərovun 27.07.1992-ci ildə Ağdərə rayonunun başqa bir kəndində - Mehmanada həlak olduğu barədə qısa məlumat dərc olunub.

Mərhumu tanıyan Daxili Qoşunların bəzi veteranlarının onun son döyüşü barədə verdikləri məlumatlar da bir-birilə uzlaşmır və dəqiqləşdirilməsi bu gün imkan xaricindədir.

DQBİ-nin rabitə xidmətinin üç nəfər zabiti o vaxt döyüş bölgəsindən sağ qayıtmayıb, onlardan biri xidmət rəisi olub.

Beləliklə, bu yazıda kapitan N.Cəfərovun döyüş yolu barədə müxtəlif mənbələrə istinadən ortaya çıxarılan məqamlar olduğu kimi, heç biri diqqətdən kənar saxlanılmadan təqdim olunub.

Şəhidin qardaşı Namizəd Cəfərov və mərhumun həyat yoldaşı Zülfiyyə xanımın xatirələrini dinlədim, doğma insanı müharibədə itirməyin ürəklərə nə qədər ağrı-acı gətirdiyinin bir daha şahidi oldum.

Nəzər bədii ədəbiyyatı həvəslə mütaliə edib, özü də bloknotunda şeirlər yazıb. Bu şeirlərdən birində ölüm, əcəl barədə hisslərini bölüşüb. Sanki ölümün uzaqda olmadığı ürəyinə damıb...

Son mənzil yeri bilinməyən şəhidin əzizlərinə onun hansısa bir izinin tapılacağına ümidi itirmək daha bir ağır sarsıntı olar. Ötən illər ərzində bu ümid onları tərk etməyib. 2016-cı ildə Beynəlxalq Qızıl Xaç Komitəsinin axtarış layihəsi çərçivəsində şəhidin oğlundan DNT kodunun təyini üçün bioloji nümunə götürülüb.

Zülfiyyə xanım ailə başçısını itirdikdən sonra təkbaşına, min bir əziyyət bahasına iki oğlunu – Mahmud və Kamranı boya-başa çatdırıb, onlara düzgün tərbiyə verib. Ona həyatda yaşamağa daha çox mənəvi güc verən də övladları və nəvəsidir. Hər iki oğlu hərbi xidmətdə olub. Mahmud Xəzər Dəniz Gəmiçiliyi QSC-nin nəqliyyat donanmasında kapitanın növbə köməkçisi işləyir. Kamran isə fərdi işlə məşğuldur, Rusiyanın Norilsk şəhərində yaşayır.

Bakının Xətai rayonu ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksində kapitan N.Cəfərovun da şəkli həkk olunub.

**Yalçın Abbasov**

# HƏRBİ HİSSƏNİN TİBB PERSONALI ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

Qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələn 16075 saylı hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığının, eləcə də fiziki göstəricilərinin yüksək olması onların sağlamlıq durumundan çox asılıdır. Bu baxımdan şəxsi heyətin sağlamlığının qorunub saxlanılması Daxili Qoşunlar komandanlığının və hərbi hissənin komandir heyətinin ciddi nəzarət etdiyi sahələrdəndir. Bu məqsədlə yerlərdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

Hərbi hissənin tibb personalı sözügedən mövzuda vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, müəyyən edilmiş tapşırıqları uğurla yerinə yetirir.

Qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə icra olunmasında hərbi hissənin tibb xidmətinin rəisi tibb xidməti kapitanı İlham Abbasovun zəhməti böyükdür.

Xidmət rəisi tibb xidmətinin gündəlik olaraq öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil etdiyini bildirdi. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb məntəqəsində feldşer gizir Aygün Qabulova, sanitar-təlimatçı, dezinfektor baş çavuş Şəhla Əhmədova və aptek rəisi-feldşer kiçik gizir İsaq Əmənov nümunəvi xidmətlərilə seçilirlər.

O söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Xüsusilə, bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Belə ki, sanitar-təlimatçı, dezinfektor baş çavuş Ş.Əhmədova tərəfindən gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Hərbi hissənin və yataqxananın







ərazisinə daxil olan bütün avtomobillər də dezinfeksiya olunur.

Bundan əlavə, hər gün növbətçi həkim tərəfindən hərbi hissənin nəzarət-buraxılış məntəqəsində hərbi qulluqçuların temperaturu yoxlanılır, infeksiyaya yoluxmaqdan qorunmaq üçün maskadan və tibbi əlcəklərdən istifadə olunması, gigiyena qaydalarına riayət olunması barədə məsləhətlər verilir. Gündəlik olaraq, şəxsi heyətin qidalanmasından öncə yeməklərin orqanoleptik göstəriciləri yoxlanılır.

Gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətin tibbi müayinəsi aparılır, təzyiqləri ölçülür, şikayətləri varsa, dinlənilir. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə götürülür.

Personalın digər bir üzvü aptek rəisi-feldşer kiçik gizir İ.Əmənov isə bölmələri lazımi tibbi preparatlarla təmin edir. Bundan başqa, resept və tələbnamələr üzrə dərmanları düzgün və vaxtında hazırlamaq da onun funksional vəzifələrindəndir.

Xidmət rəisi sonda hərbi hissənin tibb personalının bundan sonra da şəxsi heyətin sağlamlığının keşiyində mətin dayanacağına əminliyini ifadə etdi.

**baş leytenant**
**Xədicə Hacızadə**

# BAŞLICA HƏDƏFİMİZ BİRİNCİLİYİ QORUYUB SAXLAMAQDIR

Gizir Coşqun Əhmədov Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin ayrı yerləşən patrul taborunun nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularındandır. 2014-2016-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ilin iyul ayından Daxili Qoşunların sıralarındadır. Hazırda 17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun komendant taqımında taqım komandirinin müavini vəzifəsində xidmət edir. İntizamlı hərbi qulluqçu kimi xarakterizə olunur. Gizir C.Əhmədov idmanın ağırlıqqaldırma növü ilə məşğul olur. Region üzrə idmanın yüngül atletika növündə dəfələrlə yarışlarda iştirak edən hərbi qulluqçumuz 4 dəfə birincilik qazanıb.

Vətəninə, dövlətinə sədaqətlə xidmət edən gənc hərbçimiz xidmətə çox ciddi yanaşdığını və şəxsi heyət arasında hərbi intizamın möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəmədiyini vurğuladı. Söylədi ki, komendant taqımı günün nizam qaydalarına əsasən xidməti fəaliyyətini təşkil edir: "Komendant taqımında gündəlik olaraq şəxsi heyət qarovul xidmətinə təyin olunur. Xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə uyğun aparılır, hərbi qulluqçular xidmətə cəlb olunmamışdan öncə təlimatlandırılırlar. Saatdara üzərinə düşən vəzifələr izah olunur, postda olarkən daha ayıq-sayıq olması diqqətə çatdırılır".

Taqımda yüksək nizam-intizamın hökm sürdüyünü deyən gizir C.Əhmədov fiziki və atəş hazırlığının da daima diqqət mərkəzində saxlanıldığını söylədi. Çünki qarovul nəfərlərinin fiziki dözümlülüyü və sərrast atıcılıq qabiliyyəti qarşıya çıxan maneələrin aradan qaldırılmasında başlıca rol oynayır.

Taqım komandirinin müavini şəxsi heyətlə daim fərdi söhbətlərin aparıldığını da vurğuladı. Həmçinin, hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili



üçün hərbi hissədə bütün lazımi şəraitin mövcud olduğunu diqqətə çatdırdı.

Hərbi xidmətin şərəfli və məsuliyyətli olduğunu deyən gizir C.Əhmədov öz fikirlərini bu cür şərh etdi: "Azərbaycan bayrağının dalğalandığı hər yerdə xidmət çox şərəflidir. Daxili Qoşunların hərbi qulluqçusu olduğum üçün fəxr edirəm və bildirmək istəyirəm ki, bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsinə nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu prinsip təşkil edir. Başlıca hədəfimiz xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hər zaman birinciliyi qoruyub saxlamaqdır".

O, xidməti-vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş əsgər İlkin Əsədzadə, əsgərlərdən Fərid Məmmədov, Həsən İmranov, Tural Bayramov, Qulaməli Salmanov, Əmrah Fətəliyevin də adlarını çəkdi.

**17071 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# İNTİZAMLI ƏSGƏR, MƏSULİYYƏTLİ SÜRÜCÜ

Daxili Qoşunlarda xidməti, hərbi intizamı və məsuliyyəti ilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları çoxdur. Onlar barədə vaxtaşırı qəzetimizdə məlumat vermişik. Bu dəfə isə Daxili Qoşunların Ali Hərbi Məktəbinin nümunəvi hərbi qulluqçularından olan əsgər Ruslan Babayevi sizə təqdim edirik.

Əsgər R.Babayev 2001-ci il mayın 19-da Qəbələ rayonunun Bılıx kəndində anadan olub. 2018-ci ildə doğulub boya-başa çatdığı kənddəki tam orta məktəbdə təhsilini tamamlayıb. 2019-cu ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ilin avqust ayından noyabr ayınadək Daxili Qoşunların 12318 saylı hərbi hissəsində sürücülük kursu keçib. Hazırda Ali Hərbi Məktəbin tədris prosesinin təminatı bölüyünün avtomobil taqımında sürücü vəzifəsində xidmətini davam etdirir. Qısa müddət ərzində həm hissə komandanlığının, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Fiziki hazırlıq nəticələri qənaətbəxş olan əsgərimiz ümumi inspeksiya yoxlamasından "əla" qiymət alıb. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra etdiyinə görə dəfələrlə mükafatlandırılıb.




Tədris prosesinin təminatı bölüyünün komandiri baş leytenant Rüfət Quliyev əsgər R.Babayevi müsbət xarakterizə edir: "O, işinin məsuliyyətini dərk edir, xidməti vəzifələrini düzgün yerinə yetirir. İntizamlı əsgər və məsuliyyətli sürücüdür. Təhlükəsizlik qaydalarını bilir və şəxsi heyətin daşınması zamanı ciddi əməl edir. Hər zaman avtomobil parkından çıxmazdan əvvəl avtomobilin sazlığını yoxlayır, parkda daxili qaydalara ciddi riayət edir".

Leytenant R.Quliyev qeyd edir ki, sürücülərin nəqliyyat vasitələrini müxtəlif hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır. Onlar yolda yaranan vəziyyəti ani olaraq qiymətləndirməli, istənilən şəraitdə təhlükəsizliyi tam təmin edən qərar qəbul etməli və həyata keçirməlidirlər. Dağlarda, sutkanın gecə vaxtı, qarda, karvanda idarəetmə qaydalarını bilməlidirlər: "Əsgər R.Babayev də bu qaydaları bilir, avtomobili olduqca diqqətlə idarə edir və vəzifəsinin öhdəsindən layiqincə gəlir, ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. O, texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, yol hərəkəti qaydalarını bilir, onlara tam olaraq riayət edir".

Bölük komandirinin sözlərinə görə, yol hərəkəti qaydalarının öyrədilməsi məqsədilə şəxsi heyətlə müntəzəm olaraq məşğələlər keçirilir. Əsgər R.Babayev də məşğələlər zamanı fəallıq göstərir, qazandığı bilikləri hərbi xidmətə yeni qəbul olunmuş yoldaşlarına da öyrətməyə çalışır. Funksional vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçuya xidmətində uğurlar arzulayırıq.

**Ali Hərbi Məktəbin**
**ştatdankənar müxbir postu**

*Həkim məsləhəti*

# BİTKİ ÇAYLARININ QƏBUL EDİLMƏSİ TƏSİRLİ VASİTƏDİR

Dünyada ən çox sevilən içkilərdən biri çay sayılır. Xüsusən də insan orqanizmi üçün faydalı olan bitki çayları əvəzolunmazdır. Bitki çaylarının qəbulu sağlamlığın qorunmasında, çəki atmaq, immunitet sisteminin gücləndirilməsi və bəzi xəstəliklərin müalicəsində istifadə edilən ən mühüm alternativ tibb üsullarından biridir. Ona görə də hansı bitki çayının nəyə yaxşı təsir etdiyini və hazırlanma qaydasını bilmək də vacibdir.

Həkim-fitoterapevt Elnur Eldaroğlu **AZƏRTAC**-a deyib: "Bitki çaylarını dəmləyərkən onun temperaturu 70-80 dərəcədən çox olmamalıdır, çünki daha yüksək temperaturda dəmləyəndə təsiri bir qədər zəifləyir. Elə çay ola bilər ki, allergiyaya, mədə-bağırsaq sisteminin işinin pozulmasına səbəb olsun, ona görə də bunları nəzərə almaq lazımdır. Bitki çayları ilə müalicə iki aya qədər davam edə bilər".

Bitki çayları tərkibindəki efir yağları, antioksidantlar və digər birləşmələrə görə sağlamlıq üçün faydalı hesab olunur. Həkim-fitoterapevtin dediyinə görə, qida qəbulundan sonra həzm narahatlığı olduqda nanənin limonlu çaya qarışdırıb içilməsi ən yaxşı yardımçı vasitədir. Qara çaya razyana qatılıb içilməsi köp problemini aradan qaldırır. Qara çaya bir çubuq darçın əlavə edilməsi insulin çatışmazlığı zamanı faydalı təsir göstərir. Darçın şəkərə olan tələbatı və insulin çatışmazlığını aradan qaldırır.



Vitamin və minerallarla zəngin olan bitki çayları bədənin bir çox tələbatını ödəyir və bəzi fizioloji problemləri həll edir.

Bitki çaylarını mütəmadi olaraq həddindən artıq istifadə etdikdə sağlamlığa ciddi ziyan verə bilər. Mütəxəssislər hesab edirlər ki, bitki çaylarını istifadə etməzdən əvvəl onların tərkibi haqqında məlumatlı olmaq lazımdır.

# HƏRBİ XƏBƏRLƏR

**-YENİLİKLƏR-**

## İsrail ordusuna "Hero 30" gəzən sursat sistemləri tədarük edilib

"UVision" şirkəti tərəfindən istehsal olunan "Hero 30" gəzən sursat sistemləri İsrail Müdafiə Nazirliyinə tədarük edilib. Bu barədə "AzeriDefence"ə "UVision" şirkətindən məlumat verilib.

Məlumatda bildirilib ki, dövlət sınaqlarında taktiki-texniki xüsusiyyətlərini təsdiqləyən 3 kq-dan 150 kq-dək çəkidə və fərqli mənzillərə malik "Hero 30" gəzən sursatları artıq İsrail Müdafiə Qüvvələrinin (IDF) müxtəlif bölmələri tərəfindən döyüş əməliyyatlarında uğurla istifadə edilib.

"Hero 30"un 5, 10, 40 km mənzilli versiyaları mövcuddur. Xüsusi qabda yerləşən sursat pnevmatik üsulla atışdan sonra mühərrikin işə düşməsi nəticəsində uçuşunu davam etdirir. İnfraqırmızı elektro-optik sensorla təchiz olunmuş "Hero 30" təxminən 300-600 metr yüksəkliyə qalxaraq hədəf axtarışını aparır, bu zaman görüntünü xüsusi hazırlanmış DataLink sistemi ilə operatorun monitoruna ötürür.



# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik Sabir Aşırovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Təlim Mərkəzinin şəxsi heyəti polkovnik-leytenant İlqar Murğuzova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin şəxsi heyəti gizir Elşən Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin şəxsi heyəti MAXE əsgər Təbriz Seyidəliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti MAXE əsgər Hüseyin Süleymanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti MAXE əsgər Tural Əhmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**